# ÜRƏKLƏR

1. Layihənin məqsədi – Nağdsız ödənişlərin stimullaşdırılması;
2. Bonuslar "Ürəklər" şəklində toplanılır;
3. Ödənişlər üzrə ürəklərin hesablanması aşağıdakı qaydada nəzərdə tutulur:

| 1 AZN ödənişdən hesablanan Ürək | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | **Mobil/Internet** | **Kredit Öd.** | **Kommunal** | **Dövlət Öd.** | **Ərzaq** | **YDM** | **Aptek** | **Digər** | **Taksit** |
| BirKart Red | - | - | - | - | 10 | 10 | 10 | 40 | 75 |
| BirKart Black | - | - | - | - | 5 | 5 | 5 | 5 | 75 |
| BirKart Miles | - | - | - | - | 5 | 5 | 5 | 5 | 10 |
| Electron/Maestro | - | - | - | - | 10 | 10 | 10 | 40 | - |
| Classic/Standard | - | - | - | - | 10 | 10 | 10 | 40 | - |
| Gold | - | - | - | - | 50 | 50 | 50 | 50 | - |
| Platinum | - | - | - | - | 55 | 55 | 55 | 55 | - |
| Infinite/World Elite | - | - | - | - | 60 | 60 | 60 | 60 | - |
| Business/Sahibkar | - | - | - | - | - | - | - | - | - |
| KB digər kartlar | - | - | - | - | 10 | 10 | 10 | 40 | - |

4. BirBank üzrə ödənişlərdən ürəklərin hesablanması aşağıdakı qaydada nəzərdə tutulur:

| BirBank üzrə 1 AZN ödənişdən hesablanan Ürək | | | | |
|---|---|---|---|---|
| | **Mobil/Internet** | **Kredit Ödənişləri*** | **Kommunal** | **Dövlət Öd.** |
| BirKart Red | 40 | 20 | 20 | 5 |
| BirKart Black | 10 | 20 | 20 | 5 |
| BirKart Miles | 10 | 20 | 20 | 5 |
| Electron/Maestro | 40 | 20 | 20 | 5 |
| Classic/Standard | 40 | 20 | 20 | 5 |
| Gold | 40 | 20 | 20 | 5 |
| Platinum | 40 | 20 | 20 | 5 |
| Infinite/World Elite | 40 | 20 | 20 | 5 |
| Business/Sahibkar | - | - | - | - |
| KB digər kartlar | 40 | 20 | 20 | 5 |
| Digər bank kartları | 5 | 5 | 5 | 5 |

* *Bir müştəri kredit ödənişləri üzrə cədvəldə göstərilən əmsallarla 1 təqvim ayı ərzində maksimum 10 000 Ürək qazana bilər, 10 000 ürək limitinə çatdıqdan sonra müştəri həmin ay ərzində Birbank üzərindən edilən hər növbəti kredit ödənişi əməliyyatına görə 1 Ürək qazanır*

5. Birbank vasitəsilə aparılan qeyri-ödəniş əməliyyatları üzrə ürəklərin hesablanması aşağıdakı qaydada nəzərdə tutulur:

| BirBank üzrə əməliyyat | Hesablanma məntiqi | Bonus |
|---|---|---|
| Qeydiyyat | Bir dəfə, 3 və ya 4-cü cədvəl üzrə edilən ilk əməliyyat zamanı verilir | 500 |

6. Toplanan Ürəklər öncədən təyin olunmuş hədiyyələrə və ya partnyor şəbəkəsi çərçivəsində hər-hansı xidmət/mal/əşya alınması zamanı istifadə oluna bilər;
7. Ürəklər 365 gün ərzində aktivdir və həmin müddət ərzində istifadə olunmayan Ürəklər Bonus hesabından avtomatik silinir;
8. Hesablanmış ürəklər aşağı tam həddə qədər yuvarlaqlaşdırılır.

## 9. Ürəklərin hesablanması və istifadəsi prosesi

9.1. Müştəri "BirBank" mobil bankçılıq tətbiqini mobil telefonuna yükləyir və ya "birbank.az" internet səhifəsinə (bundan sonra hər iki hala şamil edilməklə – BirBank) daxil olur;

9.2. Müştəri BirBank-da qeydiyyatdan keçir;

9.3. Müştəri BirBank-a bağlı kart və ya hesabları üzrə POS və ya online əməliyyatlar etdikdə, Ürəklər 3-cü bəndə əsasən hesablanır.

9.4. Müştəri BirBank vasitəsilə digər əməliyyatlar etdikdə, Ürəklər Cədvəl 4 və 5-ci bəndlərə əsasən hesablanır;

9.5. Müştəri Bonus hesabını BirBank-da yaradılacaq xüsusi alt bölmədən izləyəcək və əməliyyatlarını icra edəcək. Bunun üçün aşağıdakı işlərin görülməsi zəruridir:

- BirBank-da "Mənim Vəsaitlərim" bölməsində "**Mənim Bonuslarım**" adlı alt xüsusi bölmə yaradılır;
- Bölmədə Müştərinin Ürək sayı əks olunur;
- Ürəklərlə alına biləcək hədiyyələr siyahı şəklində qeyd olunur;

9.6. Müştəri topladığı Ürək sayına uyğun hədiyyəni siyahıdan seçir;

9.7. Seçim təsdiqləndikdən sonra hədiyyə sertifikatı formalaşır və BirBank ekranında kod əks olunur;

9.8. Müştəri partnyora və ya banka yaxınlaşaraq kodu təqdim edir;

9.9. 1 müştəri 1 ay ərzində dəyəri <500 000 olan eyni hədiyyədən maksimum 2 ədəd ala bilər;

9.10. 1 müştəri 1 ay ərzində dəyəri >=500 000 olan yalnız 1 hədiyye ala bilər;

9.11. 1 müştəri 1 ay ərzində ümumilikdə maksimum 5 hədiyyə ala bilər.